# Geniş tərkibdə görüş



Aprelin 5-də Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə geniş tərkibdə görüşü olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısını salamlayan **Prezident Emoməli RƏHMON** dedi:

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli azərbaycanlı dostlar.

Sizi Tacikistanda böyük məmnuniyyətlə salamlayıram. Hörmətli İlham Heydər oğlu, Sizin dövlət səfərinizə ürəkdən şadıq. Bu səfəri Tacikistan-Azərbaycan münasibətlərinin aktual məsələlərini ətraflı müzakirə etmək və yeni artım nöqtələrini müəyyənləşdirmək üçün yaxşı fürsət hesab edirik.

Tacikistan və Azərbaycan xalqlarını qədim tarixi köklərə malik olan ənənəvi dostluq telləri bağlayır. Sevindirici haldır ki, bu gün ölkələrimizin dövlətlərarası qarşılıqlı əlaqələri geniş spektr üzrə ardıcıl surətdə inkişaf edir. Bu qarşılıqlı fəaliyyət siyasi, ticari-iqtisadi, elmi-texniki, mədəni-humanitar və bir sıra başqa sahələri əhatə edir. Biz Azərbaycan Respublikası ilə həm ikitərəfli əsasda, həm də beynəlxalq və regional təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığın hərtərəfli genişlənməsinə daim diqqət yetiririk. Əminəm ki, bu gün əldə ediləcək razılaşmalar münasibətlərimizin gündəliyini keyfiyyətcə yeni məzmunla zənginləşdirəcək. Bir daha xoş gəlmisiniz. Sözü Sizə verirəm, hörmətli İlham Heydər oğlu. Buyurun.

* * *

**Prezident İlham ƏLİYEV** dedi:

- Hörmətli Emoməli Şərifoviç, dəvətə və qonaqpərvərliyə görə sağ olun. Sizin gözəl ölkənizə yenidən səfər etməyimə və Sizinlə çox fəal, səmimi siyasi dialoqumuzu davam etdirməyə çox şadam.

Siz qeyd etdiyiniz kimi, ölkələrimizin xalqları uzun müddət ərzində fəal qarşılıqlı əlaqə saxlayırlar. Çox sevindirici haldır ki, 30 ildən artıq inkişaf edən dövlətlərarası münasibətlərimiz dövründə biz çox möhkəm təməl yaratmağa və bu təməl üzərində dostluğumuzun möhkəm binasını qurmağa nail olmuşuq.

Siz qeyd etdiyiniz kimi, biz həm çoxtərəfli formatda, həm də xüsusilə ikitərəfli formatda fəal qarşılıqlı əlaqə saxlayırıq. Həmişə mehriban dostlar kimi çox səmimi əməkdaşlıq edirik. Əlbəttə, dövlət səfəri çərçivəsində yeni qərarlar qəbul ediləcək, çoxlu sənədlər imzalanacaq, onlar münasibətlərimizin gələcək inkişafını müəyyən edəcək. Biz gündəlikdəki geniş məsələləri - həm ticari-iqtisadi sahədə, nəqliyyat-logistika sahəsində, həm də investisiya siyasəti sahəsində çox böyük perspektivləri ətraflı müzakirə edəcəyik.

Fürsətdən istifadə edib Sizi və bütün qardaş Tacikistan xalqını sosial-iqtisadi inkişafda böyük nailiyyətləriniz və Düşənbə şəhərinin bu cür coşqun inkişafı münasibətilə təbrik etmək istərdim. Mən Tacikistanda dəfələrlə olmuşam. Həm ölkənizin, həm də təbii ki, paytaxtınızın belə müsbət inkişaf dinamikasını şəxsən yəqin etmək imkanım olub. Bu münasibətlə Sizi təbrik etmək istərdim.

Qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirirəm və gələcəkdə fəal işləmək əzmindəyik. Sağ olun.

Azərbaycan.- 2023.- 6 aprel.- S.2.